**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№1 Təbiət elmləri seriyası 2007***

# ELMİN İTKİLƏRİ

## Professor Təhməz Nəsib oğlu Quliyev



Azərbaycan kimya elminə ağır itki üz vermişdi.

Qeyri-üzvi kimya (xüsusilə yarımkeçiricilər kimyası) sahəsində öz sözü olan, tanınmış alim, gözəl insan, kimya elmləri doktoru, professor Təhməz Nəsib oğlu Quliyevin döyünən qəlbi ad gününə düz bir ay qalmış 10 aprel 2007-ci ildə əbədi dayandı.

T.N.Quliyev 1935-ci il may ayının 10-da Qərbi Azərbaycanda Zəngəzur mahalının Qafan rayonunun Gığı kəndində anadan olmuşdur. 1941-1945-ci qanlı-qadalı müharibə illərində hər yerdə olduğu kimi Gığı kənd camaatı da ağır günlər keçirirdi. Ancaq bu ağırlığa baxmayaraq Nəsib kişi oğlu Təhməzi böyüyəndə müəllim görmək istəyirdi. Ona görə də 1943-cü ilin sentyabrında onu məktəbə yazdırdı. İllər keçdi, Təhməz müəllim 1953-cü ildə orta təhsilini başa vurdu. Lakin bəzi səbəblərdən həmin ili ali məktəbə qəbul imtahanlarına gedə bilməmişdir. Sonra o, hüquqşünas olmaq arzusu ilə imtahanlara hazırlaşır və növbəti il (1954-cü il) Bakıya qəbul imtahanlarına gedir, lakin arzusuna baxmayaraq necə olursa, o, kimyaçı olur. Bu barədə özünün dediklərindən: "Sənədlərimi hazırlayıb Azərbaycan Dövlət Universitetinin qəbul komissiyasına getdim, uzun dəhliz başdan-başa adamla dolu idi və hüquq fakültəsinə ərizə verənlərin sayı hədsiz dərəcədə çox idi. Məsul katibin qəbuluna düşdüm və hüquq fakültəsinə daxil olmaq istəyimi bildirəndə o nəsihət verməyə başladı: "Ay bala, attestatından görürəm ki, yaxşı oxumusan. Ancaq mən sənin hüquq fakültəsinə girməyini məsləhət bilməzdim. Ölkəmiz neft ölkəsidir, kimyaçılara böyük ehtiyac var. Mənə qulaq as, ərizəni apar, kimya fakültəsinə ver. Görürsən, bizim rektor Yusif Məmmədəliyev də məşhur kimyaçı alimdir,

akademikdir. Mən onun məsləhəti ilə sənədlərimi kimya fakültəsinə verdim və qəbul olundum".

Təhməz müəllim oxuduğu illərdə çox görkəmli alimlərdən Y.Məmmədəliyev, Ə.Quliyev, S.Mehdiyev, M.Nağıyev və C.Zulfüqarlıdan dərs almış və 1959-cu ildə oranı kimyaçı ixtisası ilə müvəffəqiyyətlə bitirmişdir. Akkademik Y.Məmmədəliyevin təşəbbüsu ilə 40 nəfər müxtəlif ixtisaslı tələbə Moskvaya aspiranturaya göndərildi. Professor T.Quliyev həmin tələbələr sırasında idi. O, müvəffəqiyyətlə imtahan verib SSRİ EA "Ümumi və Qeyri-üzvi kimya" İnstitutunun aspiranturasına qəbul olur. Akademik N.R.Lujnayanın rəhbərliyi ilə yeni bir sahə, qaz fazasında monokristalların alınmasının texnologiyasının işlənilməsi üzərində tədqiqat işləri aparır. Dövri sistemin üçüncü qrup elementlərindən olan indium və qalliumun ikili xalkogenid birləşmələrinin təkmil monokristallarının alınması texnologiyası məhz Təhməz müəllimin adı ilə bağlıdır. Bu sahədə çalışan dünya elm ictimaiyyəti Təhməz müəllimin aldığı nəticələri yüksək qiymətləndirirdilər və ona istinadlar edirdilər. 1966-cı ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi adına layiq görülür.

Təhməz müəllim Moskvada aspirantura dövründə apardığı elmi işləri "Ümumi və Qeyri-üzvi kimya" kafedrasında davam etdirir, burada "Yarımkeçiricilər kimyası" laboratoriyası yaradır və oranı çoxlu yeni cihazlarla təhciz edir.

Professor Təhməz Quliyev mürəkkəb üçlü xalkogenidli birləşmələrin qaz fazasında və istiqamətlənmiş metodla monokristallarının alınması sahəsində tədqiqat işləri aparırdı. Onun rəhbərliyi ilə çoxlu sayda elmlər namizədi, diplom və buraxılış, həmçinin magistr dissertasiya işləri hazırlanmışdır.

Təhməz müəllim aldığı elmi nəticələrdən "Yarımkeçiricilər kimyası", "Bərk cisimlər kimyası", "Ümumi kimya" kurslarından apardığı mühazirə və məşğələlərdə əyani vəsait kimi istifadə edirdi.

Professor Təhməz Quliyev 50 ilə yaxın doğma Universitetində çalışmışdı. O, burada laborantlıqdan professor kimi yüksək vəziyyəfə yüksələrək şərəfli həyat yolu keçmişdir. O, 1968-1975-ci illərdə dekan müavini, kafedra müdiri əvəzi, həmkarlar təşkilatının sədri kimi ictimai vəzifələrdə də çalışmışdır. Respublika ixtisaslaşmış müdafiə şurası nəzdində elmi seminarın sədri olmuşdur.

Latın qrafikası ilə Azərbaycan dilində dərslik və dərs vəsaitlərinin az olması, onu çox darıxdırırdı. Ona görə də 2004-cu ildə "Atomun quruluşu və elementlərin dövri sistemi" dərsliyini çap etdirmiş, "Bərk cisimlər kimyası" və "Kimyəvi rabitə" dərsliklərini isə çapa hazırlamışdır. O, bu kitabların ərsəyə gəlməsinə uzun illərdən bəri gərgin əmək sərf etmişdir. Fəqət amansız ölüm onu son iki dərsliyinin işiq üzü görməsinə imkan vermədi.

Professor Quliyev aldığı elmi nəticələri bir çox Beynəlxalq elmi konfrans və seminarlarda elmi ictimaiyyətə çatdırmışdır. Onun "Yarımkeçiricilər kimyası" sahəsində 100-dən çox elmi məqaləsi çap olunmuşdur.

Təhməz müəllim uzun illər ərzində apardığı elmi işləri yekunlaşdıraraq 1999-cu ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, kimya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 2005-ci ildə isə professor elmi adını almışdır.

Professor Quliyevin dərs dediyi tələbələr içərisində çoxlu sayda elmlər namizədi və elmlər doktoru var. Hazırda onlar müxtəlif elm və tədris ocaqlarında çalışırlar.

Təhməz müəllim müdrik insan idi, çox atalar çözu və zərb məsələlər bilirdi, yeri gələndə onlardan istifadə edərdi. Təhməz müəllim həm də gözəl ata və gözəl baba idi. Həyat yoldaşı Nigar xanımla iki qız, bir oğul və 6 nəvə böyütmüşdür. O nəvələrini hədsiz çox istəyirdi, həmişə onlardan danışırdı.

Təhməz müəllim Respublikada gedən ictimai-siyasi hadisələrə biganə deyildi. O, müstəqilliyimiz uğrunda gedən mübarizələrdə də fəal iştirak edirdi. Ulu öndərimiz, ümumi Milli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP-ın Universitetdə ilk üzvlərindən idi. Qərbi Azərbaycanlıların doğma yurd-yuvasından didərgin düşmələri onu çox narahat edirdi. Elə hey deyirdi ki, görəsən mən bir də doğma Gıgı kəndimi görə biləcəyəm? Gedib o doğma yurdumuzu seyr edəcəyəm? Amma o, çox nikbin və ümudli idi, deyirdi nə vaxtsa, biz öz torpaqlarımızı prezidentimiz İlham Əliyevin apardığı ardıcıl siyasətlə alacağıq, mən buna əminəm. Ancaq vaxtsız əcəl onun bu arzularını ürəyində qoydu.

Allah sizə rəhmət eləsin, Təhməz müəllim, rahat yat, torpağın nurla dolsun. Biz tələbələrin sizin yarımçıq qalmış fikirlərinizi tamamlayacağıq və sizi qəlbimizdə daima yaşadacağıq.

***Redaksiya heyəti***